BEYNƏLXALQ MÜNASİBƏTLƏRİN TƏHLİLİ MƏRKƏZİ

TƏHLİL

# ABŞ xarici siyasətinin qlobal və regional aspektləri


## Mətin Məmmədli

Mirzə İbrahimov 8, Bakı, AZ1005, Azərbaycan

(+994 12) 596-82-39, (+994 12) 596-82-41

E-mail: www.aircenter.az, info@aircenter.az


İYUN 2026

## ABŞ xarici siyasətinin qlobal və regional aspektləri

- **Liberal beynəlxalq nizamın zəifləməsi ABŞ xarici siyasətində normativ yanaşmadan geosiyasi realizmə keçidi sürətləndirmişdir.**
- **Çin ABŞ tərəfindən XXI əsrin əsas sistem rəqibi kimi qiymətləndirilir və Vaşinqtonun qlobal, regional siyasətində məhz bu rəqabət həlledici rol oynayır.**
- **Donald Tramp administrasiyasının Milli Təhlükəsizlik Strategiyası (2025) və Milli Müdafiə Strategiyası (2026) ABŞ xarici siyasətində "güc vasitəsilə sülh", milli maraqların prioritetliyi və müttəfiqlər arasında məsuliyyət yükünün bölüşdürülməsi prinsiplərini ön plana çıxarmışdır.**
- **ABŞ regional siyasətlərini vahid geosiyasi məntiq əsasında formalaşdırır: Latın Amerikasında Çin təsirinin qarşısını almaq, Avropada müttəfiqlərin məsuliyyətini artırmaq, Yaxın Şərqdə minumum resursla maksimum təsiri saxlamaq və Hind-Sakit okean regionunda strateji üstünlüyü qorumaq.**
- **ABŞ xarici siyasətinin gələcək effektivliyi iki əsas amildən asılı olacaq: Bunlar Çinlə uzunmüddətli rəqabətdə texnoloji və iqtisadi üstünlüyün qorunması, eləcə də müttəfiqlərin təhlükəsizlik sahəsində daha böyük məsuliyyət götürməsi.**

XXI əsrin üçüncü onilliyi beynəlxalq münasibətlər sistemində fundamental dəyişikliklərlə xarakterizə olunur. Soyuq müharibədən sonra ABŞ-ın liderliyi ilə formalaşmış liberal beynəlxalq nizam artıq əvvəlki funksionallığını və legitimliyini qoruyub saxlaya bilmir. Qlobal güc balansının dəyişməsi, Çin Xalq Respublikasının sürətli yüksəlişi, Rusiyanın revizionist siyasəti, regional güclərin fəallaşması və beynəlxalq institutların effektivliyinin azalması mövcud dünya düzəninin böhranını daha da dərinləşdirir. Belə bir şəraitdə ABŞ xarici siyasəti də transformasiya mərhələsinə daxil olmuşdur. Vaşinqton artıq özünü yalnız liberal beynəlxalq sistemin qoruyucusu kimi deyil, ilk növbədə milli maraqlarını və strateji üstünlüyünü qorumağa çalışan böyük güc kimi təqdim edir. Donald Tramp administrasiyasının 2025-ci il Milli Təhlükəsizlik Strategiyası[1]və 2026-cı il Milli Müdafiə Strategiyası[2]bu transformasiyanın ideoloji və strateji əsaslarını aydın şəkildə ortaya qoyur. Mövcud mərhələdə ABŞ xarici siyasətinin əsas məqsədi dəyişən beynəlxalq sistem şəraitində qlobal liderlik mövqeyini qorumaq, Çinlə strateji rəqabətdə üstünlüyü əldə saxlamaq və rəqib güclərin müxtəlif regionlarda təsir imkanlarını məhdudlaşdırmaqdır. Bu məqsəd qlobal strategiyanın formalaşdırılmasında və regional siyasətlərin müəyyən edilməsində əsas istiqamətləndirici amilə çevrilmişdir.

[1] https://www.whitehouse.gov/wp-content/uploads/2025/12/2025-National-Security-Strategy.pdf
[2] https://media.defense.gov/2026/Jan/23/2003864773/-1/-1/0/2026-NATIONAL-DEFENSE-STRATEGY.pdf

## Dünya nizamının böhranı və ABŞ-ın strateji adaptasiyası

Soyuq müharibənin başa çatmasından sonra ABŞ rəhbərliyi altında formalaşan liberal qlobal nizam beynəlxalq münasibətlər sistemində görünməmiş üstünlük yaratmışdı. Demokratiya, açıq bazar iqtisadiyyatı, beynəlxalq hüququn üstünlüyü və çoxtərəfli institutlar bu sistemin əsas dayaqlarını təşkil edirdi. Lakin son iyirmi ildə baş verən proseslər göstərdi ki, liberal nizamın universallığı haqqında təsəvvürlər reallıqla tam uzlaşmır. Belə demək mümkündürsə, liberal beynəlxalq nizam son illərdə həm sistemdaxili, həm də sistemxarici çağırışlarla üzləşir və qlobal güc balansında dəyişikliklər müşahidə olunur[3].

ABŞ-ın Yaxın Şərqdəki hərbi kampaniyaları, 2008-ci il maliyyə böhranı, Brexit prosesi, Avropada populist qüvvələrin yüksəlişi və Çin iqtisadiyyatının sürətli inkişafı bu sistemin zəifləməsinə gətirib çıxardı. Əslində, beynəlxalq münasibətlər nəzəriyyəsinin realist məktəbinin əsas tezisləri yenidən aktuallaşmağa başladı. Dövlətlər üçün əsas prioritet yenidən güc, təhlükəsizlik və milli maraqlar oldu. Liberal yanaşmanın ön plana çıxardığı normativ və ideoloji faktorlar isə ikinci plana keçməyə başladı. Məhz buna görə də ABŞ xarici siyasətində yeni mərhələ müşahidə olunur. Vaşinqton artıq beynəlxalq sistemi transformasiya etməkdən daha çox öz strateji üstünlüyünü qorumağa çalışır. Bu yanaşma Donald Tramp administrasiyasının son zamanlar qəbul etdiyi strateji sənədlərdə açıq şəkildə əks olunmuşdur. Yeni yanaşmanın mahiyyəti ondan ibarətdir ki, ABŞ hər regionda eyni səviyyədə aktivlik nümayiş etdirməyə çalışmır. Resursların məhdudluğu və geosiyasi rəqabətin kəskinləşməsi Vaşinqtonu prioritetləşdirməyə məcbur edir. Bu isə qlobal strategiyanın mərkəzinə Çin amilinin yerləşdirilməsi ilə nəticələnmişdir.

Müasir beynəlxalq münasibətlər sistemində ABŞ və Çin arasındakı rəqabət əsas struktur prosesə çevrilmişdir. Soyuq müharibə dövründə ABŞ-Sovet qarşıdurmasının oynadığı rolu bu gün getdikcə daha çox ABŞ-Çin rəqabəti oynamaqdadır. Təbii ki, müəyyən fərqlərlə. ABŞ strateji sənədlərində Çin sadəcə regional güc kimi deyil, beynəlxalq sistemin strukturunu dəyişdirmək potensialına malik qlobal rəqib kimi təqdim edilir. Vaşinqton hesab edir ki, Pekin iqtisadi gücünü hərbi, texnoloji və diplomatik imkanlarla birləşdirərək alternativ qlobal təsir mərkəzi formalaşdırmağa çalışır[4]. Çinin yüksəlişi ilk növbədə iqtisadi sahədə özünü göstərmişdir. Son iyirmi ildə Çin dünyanın ikinci böyük iqtisadiyyatına çevrilmiş, qlobal istehsal zəncirlərinin mərkəzi rolunu əldə etmiş və texnoloji inkişaf tempini sürətləndirmişdir. Süni intellekt, yarımkeçiricilər, kvant texnologiyaları və yaşıl enerji kimi strateji sahələrdə Çin artıq ABŞ üçün ciddi rəqib hesab olunur. Vaşinqtonun əsas narahatlıqlarından biri

[3] https://www.chathamhouse.org/2025/03/competing-visions-international-order
[4] https://www.chathamhouse.org/2025/03/competing-visions-international-order

ondan ibarətdir ki, iqtisadi üstünlük zamanla hərbi və siyasi üstünlüyə çevrilə bilər. Bu baxımdan ABŞ yalnız iqtisadi deyil, texnoloji və hərbi sahələrdə də Çinlə uzunmüddətli rəqabət aparmağa hazırlaşır[5]. ABŞ administrasiyası xüsusilə ehtiyat edir ki, Vaşinqtonun diqqətinin zəiflədiyi regionlarda Çin təsiri daha sürətlə genişlənə bilər. Bu narahatlıq Latın Amerikası, Afrika, Yaxın Şərq və Cənub-Şərqi Asiya istiqamətlərində daha aydın görünür.

## Donald Tramp administrasiyasının xarici siyasət baxışı

2025-ci ildə qəbul olunmuş Milli Təhlükəsizlik Strategiyası və 2026-cı il Milli Müdafiə Strategiyası Donald Tramp administrasiyasının xarici siyasət fəlsəfəsini sistemli şəkildə ortaya qoyur. Bu sənədlərdə üç əsas ideya diqqəti cəlb edir:

### Birinci: Milli maraqların prioritetliyi

Mövcud administrasiya bu prinsipi ABŞ xarici siyasətinin əsas ideoloji dayağı kimi təqdim edir. Bu yanaşmaya görə, beynəlxalq təşəbbüslər, hərbi əməliyyatlar və çoxtərəfli öhdəliklər ilk növbədə Amerikanın iqtisadi rifahına, enerji təhlükəsizliyinə, texnoloji üstünlüyünə və milli təhlükəsizliyinə nə dərəcədə xidmət etməsi baxımından qiymətləndirilir. Strategiyada qlobal liderlik məqsəd kimi deyil, ABŞ-ın milli maraqlarını qorumaq üçün vasitə kimi təqdim olunur. Bu yanaşma xarici yardım proqramlarının, ticarət sazişlərinin və beynəlxalq təşkilatlarla əməkdaşlığın daha praqmatik meyarlarla dəyərləndirilməsini nəzərdə tutur. Mövcud administrasiya hesab edir ki, ABŞ xarici siyasəti ilk növbədə Amerika təhlükəsizliyinə və rifahına xidmət etməlidir. Xarici siyasətin qiymətləndirilməsi də məhz bu meyar əsasında aparılır.

### İkinci: "Peace Through Strength" konsepsiyası

Bu konsepsiya ABŞ-ın hərbi gücünü yalnız müdafiə vasitəsi deyil, həm də diplomatik təsir aləti kimi qiymətləndirir. Administrasiya hesab edir ki, güclü silahlı qüvvələr, müasir texnologiyalar, nüvə çəkindiriciliyi və yüksək döyüş hazırlığı potensial rəqiblərin aqressiv davranışlarının qarşısını alır. Xüsusilə Çin və Rusiya kimi böyük güclərlə rəqabət şəraitində hərbi üstünlüyün qorunması strateji sabitliyin əsas şərti kimi təqdim edilir. Bu yanaşma müdafiə sənayesinə investisiyaların artırılması, Silahlı Qüvvələrin modernləşdirilməsi və yeni nəsil texnologiyaların hərbi sahəyə inteqrasiyası ilə müşayiət olunur. Donald Tramp administrasiyası güclü hərbi potensialın müharibənin qarşısını almağın əsas vasitəsi olduğunu vurğulayır. Bu yanaşmaya görə, çəkindiricilik qabiliyyətinin artırılması rəqiblərin riskli addımlar atmasının qarşısını alır.

[5] https://www.csis.org/programs/chinese-business-and-economics/projects/us-china-relations

**Üçüncü: Müttəfiqlər arasında yük bölgüsü**

Strategiyada qeyd olunur ki, ABŞ qlobal təhlükəsizlik sisteminin əsas dayağı olaraq qalmasına baxmayaraq, müttəfiqlər də kollektiv müdafiəyə daha böyük töhfə verməlidirlər. NATO üzvlərinin müdafiə xərclərini artırması, Asiya-Sakit okean regionundakı tərəfdaşların isə təhlükəsizlik təşəbbüslərində daha fəal iştirak etməsi təşviq edilir. Bu yanaşma Vaşinqtona resurslarını daha səmərəli bölüşdürməyə və əsas strateji rəqabət məkanı hesab edilən Hind-Sakit okean istiqamətinə yönəltməyə imkan verir. ABŞ hesab edir ki, Avropa və Asiyadakı tərəfdaşlar öz təhlükəsizliklərinin təmin edilməsində daha çox məsuliyyət daşımalıdırlar. Bu yanaşma ABŞ resurslarının əsas prioritet sayılan Çin istiqamətinə yönəldilməsinə imkan yaradır.

**ABŞ-ın Latın Amerika siyasəti**. Latın Amerikası ABŞ xarici siyasətində xüsusi yer tutur. Coğrafi yaxınlıq səbəbindən region Vaşinqton tərəfindən strateji arxa məkan kimi qiymətləndirilir. Son illərdə Çin regionda böyük iqtisadi nüfuz əldə edib. Bir çox Latın Amerikası ölkələrində Çin əsas ticarət tərəfdaşına çevrilmişdir. Pekin limanlar, dəmir yolları, enerji infrastrukturu və rəqəmsal kommunikasiya layihələrinə milyardlarla dollar sərmayə yatırıb[6]. ABŞ bu prosesi yalnız iqtisadi hadisə kimi qiymətləndirmir. Vaşinqton hesab edir ki, iqtisadi təsir zamanla siyasi və geostrateji təsirə çevrilə bilər. Bu səbəbdən Donald Tramp administrasiyası regionla münasibətlərdə daha fəal siyasət yürütməyə çalışır. ABŞ üçün əsas məqsəd Çin və digər rəqiblərin təsirinin məhdudlaşdırılması, strateji infrastruktur üzərində nəzarətin qorunması və Qərb yarımkürəsində üstün mövqeyin saxlanılmasıdır. Müəyyən mənada bu yanaşma klassik Monro doktrinasının müasir interpretasiyası kimi qiymətləndirilə bilər.

Region üzrə siyasətin digər mühüm istiqaməti qeyri-qanuni miqrasiya, transmilli cinayətkarlıq və narkotik qaçaqmalçılığı ilə mübarizədir. Vaşinqton iqtisadi əməkdaşlığı və təhlükəsizlik tərəfdaşlığını gücləndirməklə həm daxili təhlükəsizlik risklərini azaltmağa, həm də Çinin artan iqtisadi nüfuzuna qarşı balans yaratmağa çalışır.

**ABŞ-ın Avropa siyasəti.** Avropa ABŞ-ın ən vacib müttəfiqlik məkanlarından biri olaraq qalır. Şimali Atlantika Alyansı (NATO) Vaşinqtonun qlobal təhlükəsizlik strategiyasının mühüm elementidir. Lakin Donald Tramp administrasiyası Avropa ilə münasibətlərdə yeni yanaşma tətbiq edir. ABŞ hesab edir ki, Avropa ölkələri öz təhlükəsizlikləri üçün daha çox məsuliyyət daşımalıdırlar. Bu yanaşmanın arxasında üç əsas səbəb dayanır.

**Birincisi, ABŞ müdafiə yükünün böyük hissəsini daşımaq istəmir.**

**İkincisi, Vaşinqton Çin istiqamətinə daha çox resurs yönəltmək niyyətindədir.**

---

[6] https://www.cfr.org/articles/china-in-latin-america-december-2025

**Üçüncüsü, Amerika ictimai rəyində geniş tərəfdarları olan təcridçi baxışlar ölkənin xarici siyasət strategiyasına da təsir edir.**

Birləşmiş Ştatların Avropa siyasətində enerji təhlükəsizliyi, müdafiə sənayesinin inkişafı və Rusiyanın təsir imkanlarının məhdudlaşdırılması xüsusi yer tutur. ABŞ Avropa ilə strateji əlaqələri qorumağa çalışsa da, daha dayanıqlı və özünütəmin edən Avropa təhlükəsizlik arxitekturasının formalaşmasını dəstəkləyir. Müttəfiqlər arasında yükün bölüşdürülməsi ilə bağlı onu da əlavə edək ki, NATO üzvləri artıq müdafiə xərclərinin artırılması və kollektiv təhlükəsizlik üzrə öhdəliklərin gücləndirilməsi barədə razılığa gəliblər [7]. Rusiya-Ukrayna müharibəsi Avropa təhlükəsizliyinin əhəmiyyətini artırsa da, ABŞ Avropanın strateji muxtariyyətinin gücləndirilməsini dəstəkləyir. Vaşinqton Avropanı tərk etmək deyil, onu daha çox məsuliyyət daşıyan tərəfdaşa çevirmək istəyir.

**ABŞ-ın Yaxın Şərq siyasəti.** Yaxın Şərq ABŞ xarici siyasətində əvvəlki qədər dominant mövqedə olmasa da, regionun strateji əhəmiyyəti qalmaqdadır. Yaxın Şərqdə ABŞ siyasəti həm də Çin və Rusiyanın artan təsirinin balanslaşdırılmasına yönəlmişdir. Region ölkələri ilə müdafiə, enerji və texnologiya sahələrində əməkdaşlığın genişləndirilməsi Vaşinqtonun uzunmüddətli geosiyasi maraqlarına xidmət edir.

Vaşinqtonun regionla bağlı əsas maraqları aşağıdakılardır:

**İsrailin təhlükəsizliyi;**

**İranın çəkindirilməsi;**

**Enerji marşrutlarının qorunması;**

**Terrorizmlə mübarizə;**

**Qırmızı dəniz və Hörmüz boğazında təhlükəsizliyin təmin edilməsi.**

Donald Tramp administrasiyası əvvəlki dövrlərdən fərqli olaraq regionda genişmiqyaslı hərbi iştirakdan daha çox tərəfdaş dövlətlərə söykənən təhlükəsizlik modeli qurmağa çalışır. Səudiyyə Ərəbistanı, BƏƏ və İsrail ABŞ-ın regional strategiyasında xüsusi yer tutur. Bununla yanaşı, iqtisadi əməkdaşlıq və investisiya layihələri də geosiyasi məqsədlərin həyata keçirilməsində mühüm alət kimi istifadə olunur.

**ABŞ-ın Hind-Sakit okean regionu siyasəti.** Donald Tramp administrasiyasının xarici siyasətində əsas prioritetlərdən biri də Hind-Çin, Sakit okean regionudur. Bu istiqamətdə iqtisadi təhlükəsizlik, təchizat zəncirlərinin dayanıqlılığı, dəniz

[7] https://www.nato.int/en/about-us/official-texts-and-resources/official-texts/2025/06/25/the-hague-summit-declaration

kommunikasiyalarının açıq saxlanılması və yüksək texnologiyalar üzrə rəqabət mühüm yer tutur. ABŞ regional tərəfdaşlıqlar vasitəsilə qaydalara əsaslanan beynəlxalq nizamın qorunmasını və Çinin potensial hegemonluğunun qarşısının alınmasını hədəfləyir. Bu region ABŞ-Çin rəqabətinin əsas coğrafi məkanı hesab edilir.

ABŞ üçün əsas məqsəd Çinin regional hegemonluq əldə etməsinin qarşısını almaqdır. Bu məqsədlə Vaşinqton:

**Yaponiya ilə ittifaqı gücləndirir;**

**Avstraliya ilə strateji əməkdaşlığı genişləndirir;**

**Filippin və Cənubi Koreya ilə hərbi əlaqələri dərinləşdirir;**

**QUAD formatını inkişaf etdirir.**

Tayvan məsələsi ABŞ strategiyasında xüsusi yer tutur. Vaşinqton hesab edir ki, Tayvan boğazında status-kvonun dəyişdirilməsi bütövlükdə Asiya-Sakit okean təhlükəsizlik sisteminə ciddi təsir göstərə bilər. Bu baxımdan ABŞ hərbi çəkindiricilik qabiliyyətinin artırılmasını və regional müttəfiqlərlə koordinasiyanın gücləndirilməsini əsas prioritet hesab edir.

## Nəticə

Mövcud strateji sənədlərin və praktiki addımların təhlili göstərir ki, ABŞ xarici siyasətində qlobal liderlik anlayışı tamamilə aradan qalxmasa da, onun məzmunu dəyişir. Vaşinqton artıq resurslarını daha selektiv şəkildə istifadə edir, prioritet regionları ön plana çıxarır və böyük güclərarası rəqabəti siyasətin əsas istiqamətləndirici amili kimi qəbul edir. Bu yanaşma ABŞ-ın həm müttəfiqlərlə münasibətlərinə, həm də rəqib dövlətlərlə qarşılıqlı fəaliyyətinə təsir göstərir.

Yaxın perspektivdə ABŞ-Çin rəqabətinin beynəlxalq münasibətlər sisteminin əsas struktur elementi olaraq qalacağı gözlənilir. Buna görə də ABŞ-ın Latın Amerikası, Avropa, Yaxın Şərq və Hind-Sakit okean regionlarında həyata keçirdiyi siyasətlər vahid qlobal strategiyanın tərkib hissəsi kimi qiymətləndirilməlidir. Bu strategiyanın uğuru Vaşinqtonun iqtisadi, texnoloji və hərbi üstünlüyünü nə dərəcədə qoruyub saxlaya bilməsindən asılı olacaq.

ABŞ xarici siyasəti hazırda dərin transformasiya mərhələsindən keçir. Liberal beynəlxalq nizamın böhranı Vaşinqtonu daha realist, daha selektiv və milli maraqlara əsaslanan strategiya formalaşdırmağa sövq etmişdir. Donald Tramp administrasiyasının Milli Təhlükəsizlik Strategiyası və Milli Müdafiə Strategiyası göstərir ki, ABŞ artıq qlobal proseslərə əvvəlki kimi universal missiya prizmasından deyil, strateji rəqabət prizmasından yanaşır. Bu yeni yanaşmanın mərkəzində Çin

amili dayanır. ABŞ-ın Latın Amerikası, Avropa, Yaxın Şərq və Hind-Sakit okean siyasətləri bu rəqabətin müxtəlif regional təzahürləri kimi çıxış edir.

Beləliklə, müasir mərhələdə ABŞ xarici siyasətinin əsas məqsədi liberal dünya düzənini bərpa etməkdən daha çox, dəyişən beynəlxalq sistemdə öz strateji üstünlüyünü qorumaq və Çin başda olmaqla rəqib güclərin qlobal təsir imkanlarını məhdudlaşdırmaqdır. Məhz bu amil yaxın onillikdə həm ABŞ xarici siyasətinin, həm də beynəlxalq münasibətlər sisteminin inkişaf trayektoriyasını müəyyən edəcəkdir.

**Müəllif: Mətin Məmmədli, Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin şöbə müdiri**